**Enerji Məsələlərini Tənzimləmə Agentliyi**

**“Dəftərxana və təsərrüfat mallarının satın alınması” məqsədilə**

**KOTİROVKA SORĞUSU ELAN EDİR:**

| **Kotirovka sorğusu 1 (bir) lot üzrə keçirilir:** | | **İştirak haqqı** (manatla) |
|---|---|---|
| **Lot 1** | “Dəftərxana və təsərrüfat mallarının satın alınması” | **100,00** |

Bu Kotirovka sorğusu “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun 50-1.1-ci maddəsinin tələblərinə uyğun olaraq yalnız mikro, kiçik və orta sahibkarlıq subyektlərinin iştirakı ilə, kotirovka sorğusu üsulu tətbiq edilməklə elektron satınalma vasitəsilə keçirilir.

Bu Kotirovka sorğusu üzrə iddiaçılar (bundan sonra - **iddiaçılar**) https://www/etender.gov.az - dövlət satınalmalarının vahid internet portalına (bundan sonra – **Portal**) daxil olub Kotirovka sorğusu haqqında ətraflı məlumatı əldə edə, Kotirovka sorğusu ilə bağlı suallarını Portalda satınalan təşkilata ünvanlaya bilərlər.

İddiaçılar bu Kotirovka sorğusu əsasında bağlanması nəzərdə tutulan satınalma müqaviləsini (bundan sonra – **Müqavilə**) yerinə yetirmək üçün kifayət qədər maliyyə və texniki imkanlara malik olmalıdırlar.

İddiaçılar bu Kotirovka sorğusunda müəyyən edilmiş lot üzrə iştirak haqqını Portal vasitəsilə elektron ödəniş sistemində yaradılmış müvəqqəti hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Kotirovka sorğusu şərtlərini Portal vasitəsilə əldə edə və təkliflərini elektron qaydada təqdim edə bilərlər.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

**Əlaqə telefonu: (012) 598-16-53**

**Əlaqələndirici şəxs: Tender Komissiyası** (*office@regulator.gov.az*).

İddiaçı Kotirovka sorğusunda iştirak etmək üçün aşağıda qeyd olunan sənədləri Portal vasitəsilə təqdim etməlidir:

- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə arayış;*
- *Satınalma müqaviləsini bağlamaq səlahiyyəti olması barədə arayış;*
- *Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması, müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə arayış;*
- *Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin,habelə işlərini idarə edənlərin,qulluqçularının peşəkar fəaliyyətləri,yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması,yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə arayış;*
- *Sahibkarlıq subyektinin bölgüsü barədə arayış;*
- *Rekvizitlər;*
- *Qiymət kotirovkası (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*

Kotirovka sorğusu təklifi Azərbaycan dilində tərtib edilməli, xarici dildə olan Qiymət kotirovkası sənədləri isə (əgər olarsa) Azərbaycan dilinə tərcümə olunmalıdır.

Bu Kotirovka sorğusunda iştirak etmək üçün ixtisas göstəricilərinə dair hüquqi

sənədlərin skan və ya elektron versiyaları Portalda avtomatik qaydada müəyyən edilmiş vaxtdan gec olmayaraq iddiaçılar tərəfindən Portala yüklənməlidir. Qeyd olunan sənədlərin həmin vaxtdan gec təqdim edilməsi şəxsin iddiaçı qismində qeydə alınmaması üçün əsasdır.

Qiymət kotirovkası 27 mart 2023-cü il tarixdə saat 18:00-dək Portal vasitəsilə təqdim edilməlidir. Göstərilən vaxtdan gec təqdim edilmiş Qiymət kotirovkası satınalan təşkilat tərəfindən qəbul olunmur.

Portala yüklənmiş bütün Qiymət kotirovkaları 28 mart 2023-cü il tarixdə saat 11:00-da Portal vasitəsi ilə açıqlanacaqdır. İddiaçılar Kotirovka Sorğusu nəticələri ilə Portal vasitəsi ilə tanış ola bilərlər.

**Qeyd:**

*1. Qiymət kotirovkalarının qiymətləndirilməsi Kotirovka sorğusu şərtlərinin 3-cü bölməsində nəzərdə tutulmuş meyarlara əsasən kommersiya təklifi zərfləri əsasında aparılacaqdır.*

*2. Kotirovka sorğusunda iştirak, Qiymət kotirovkasının qiymətləndirilməsi, yazışmalar, sual-cavablar və digər hərəkətlər yalnız Portal vasitəsilə həyata keçirilir.*

*3. İddiaçı Kotirovka sorğusu şərtlərinin məzmununu, o cümlədən təlimatları, formaları və şərtləri ilə tam tanış olaraq, Qiymət kotirovkası təqdim etməlidir. Kotirovka sorğusu şərtlərini almış iddiaçının həmin şərtlər ilə tanış olmaması onun şərtlərin məzmunundan, o cümlədən təlimatlardan, forma və şərtlərdən kənar təklif verməsi üçün əsas ola bilməz.*

Tender Komissiyası